# Xatirələrdə əbədi yaşayan qəhrəman



**Vətən müharibəsi şəhidi Rəvan Yusif oğlu Əliyev Sumqayıtda anadan olub. Uşaqlıq və yeniyetməlik dövrü isə ata yurdu Qubada keçib.**

2007-ci ildə Quba rayonu 3 nömrəli məktəbin 1-ci sinfinə gedib. Bir il sonra balaca Rəvan dərslərilə yanaşı, həm də Quba şəhər İncəsənət Məktəbində tar və fortepiano ilə də məşğul olmağa başlayıb. Musiqiyə, poeziyaya həvəsli olub. Kiçik yaşlarından şeir, mahnı yazıb. Məktəbi bitirdikdən sonra gənc Rəvan təhsilini Bakı İdarəetmə və Texnologiya Kollecində davam etdirib. Təhsilini başa vurduqdan sonra 2019-cu ilin iyul ayından müddətli həqiqi hərbi xidmətə çağırılıb. Dövlət Sərhəd Xidmətinin Yevlax şəhərindəki Çevik Hərəkət Qüvvələrinin Çevik Hərəkət Briqadasında atıcı vəzifəsində xidmətə başlayıb. Xidməti zamanı ona verilmiş tapşırıqların öhdəsindən layiqincə gəlib, hərbi nizamnamənin tələblərinə ciddi riayət edən əsgər olub. Vətən müharibəsi başlayanda Rəvan böyük ruh yüksəkliyi ilə cəbhəyə yollanıb. Ağdam və Cəbrayıl istiqamətlərində döyüşüb, Zəngilan rayonu ərazisində İran İslam Respublikası ilə dövlət sərhədinin işğaldan azad edilməsində iştirak edib. Düşmənə qarşı amansız olan Rəvan əsl rəşadət nümunəsi göstərib.

Oktyabrın 22-də Zəngilan rayonu ərazisində Sığırt yüksəkliyinin azad olunması uğrunda döyüşə gedərkən bölüyü ilə birlikdə düşmən pusqusuna düşən Rəvan igidlik




göstərərək, sona qədər döyüşüb və yoldaşlarının pusqudan çıxmasında fədakarlıq göstərib, özü isə qəhrəmancasına şəhid olub. 29 oktyabrda Quba şəhərində dəfn edilib.

Rəvan Yusif oğlu Əliyev ölümündən sonra Prezident İlham Əliyev tərəfindən "Vətən uğrunda", "İgidliyə görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin xatirəsini əbədiləşdirmək məqsədilə yaşadığı küçədə abidə-bulaq kompleksi inşa olunub. Qubada yerləşən küçələrdən birinə Rəvanın adı verilib. Bununla yanaşı, onun Zəngilanda şəhid olduğu döyüş mövqeyi də şəhidimizin adı ilə "Rəvan postu" adlandırılıb.

"Müharibə başlayandan döyüşlərdə olub. Rəvanın xatirəsi hər yerdə ehtiramla anılır. 20 yaşı olanda kəndimizdə bulaq kompleksinin açılış oldu. Mən oğlumla fəxr edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Rəvan həyatsevər, ailəyə bağlı oğul idi. Tarda ifa etməyi öyrənmişdi. Ən çox futbola həvəsi vardı. "Barselona" futbol klubunun stadionu "Nou Kamp"da matç izləmək ən böyük arzularından biri idi. Şəhid olandan sonra döyüş yoldaşları məndən nə lazım olduğunu soruşanda onlardan oğlumun hərbi geyimini istədim. Onu mənə təqdim elədilər. Döyüş yoldaşları daim Rəvanı yad edirlər. Evimizə də gəliblər", - deyə şəhidin atası Yusif Əliyev söyləyib.

Şəhidin anası Mehriban xanım: "Rəvan haqqında danışmaq çətin də olsa, qürurvericidir. Evin tək oğlu olub - bir bacı, bir qardaş. Elə balacalığından hiss edirdim ki, bu uşaqda vətənpərvərlik ruhu daha yüksəkdir. İllər keçdi, Rəvan şəhid oldu. Mən indi anladım ki, oğlumu niyə fərqləndirirdim. Çünki şəhidlər seçilmişlərdir. Rəvan kimi oğullar sayəsində torpaqlarımız azad olundu. Onlar Azərbaycanın ən yeni tarixini qızıl hərflərlə yazdılar. Rəvan tarix dərsini çox sevirdi. Qədim Azərbaycan dövlətlərinin xəritələrini çəkirdi. Kollecdə də oxuyanda tarix dərslərindən yaxşı qiymətlər alırdı. Vətənə, bayrağımıza olan sevgisindəndir ki, Rəvan Sərhəd Qoşunlarının könüllü döyüşlərə atılan hərbçilərindən oldu. Hara getsə bayrağımızı özü ilə aparırdı. Sonuncu dəfə müharibə başlamamışdan bir neçə gün əvvəl danışmışdıq. Sonra heç əlaqə saxlamadı. Hamımız üçün ağırdır. Allah şəhid döyüşçülərimizə rəhmət eləsin".

**Müşfiq MİRZƏ,**
**"Respublika".**